AZƏRBAYCAN MİKROMALİYYƏ ASSOSİASİYASI

# AMFA AYLIQ İNFORMASİYA BÜLLETENİ

NƏŞR 04. APREL 14.04.2012

**AMFA MİSSİYASI:**

Mikromaliyyə təşkilatlarının potensialının **gücləndirilməsi** və mikromaliyyə ijmanın maraqlarının qorunmasına yönəldilmiş effektiv kollektiv təşəbbüslərin **təşviq olunması**

**BU SAYIMIZDA:**


AMA Konfransı 1

MİX-dən AMA və üzvlərinə mükafat 1

Biz sertifikatlaşmış Mikromaliyyə Ekspertiyik... 1

Sosial Fəaliyyət üzrə Universal Standartların müzakirəsi 2

Accion icraçı direktoru ilə maraqlı müsahibə 2

Üzv xəbərləri: Turanbank və AgroInvest 2

Təhsil İmkanları 3


## TƏQVİMİNİZDƏ QEYD EDİN!!!

**6-CI AZƏRBAYCAN MİKROMALİYYƏ KONFRANSI**

**OKTYABR 4-5, 2012-Cİ İL**

**BAKI, AZƏRBAYCAN**

## MIX-dən AMFA və onun üzvlərinə mükafat




Microfinance Exchange (MIX), Mişel & Susan Dell Fonu, Ford Fondu və CGAP **AMFA-nı Sosial Fəaliyyət Məlumatlarının toplanması işinin icrasına görə Qızıl Mükafata** layiq görmüşdür. Bütün dünya üzrə Qızıl Şəbəkə Mükafatı alan 2 assosiasiya olmuşdur ki, onlarda biri də AMFA-dır. AMFA əmindir ki, mikromaliyyə sektoru inkişaf etdikcə, mikromaliyyə xidmətləri göstərənlərin yalnız maliyyə davamlılığına deyil, həm də sosial fəaliyyət davamlılığı və uğurlarına, şəffaflıq və hesabatlılığına diqqət yetirməkı hazırkı inkişaf cərəyanının əsas tələbidir. Məhz buna görə biz Azərbaycan Mikromaliyyə təşkilatlarının sosial missiyalarına təəhhüdünü bir neçə ildir ki, təşviq edirik.




AMFA üzvlərindən, **VF AzərKredit Platin Mükafat, BOKT Kaspian İnvest və Avrasiya Kredit isə Gümüş Mükafata** layiq görülmüşlər.

***Bütün AMFA işçiləri və üzv təşkilatlarını təbrik edirik!***

## Biz sertifikatlaşmış mikromaliyyə ekspertləriyik, növbəti kimdir?



AĞARAZİ



SEVDA

Frankfurt Maliyyə və Menecment Məktəbinin Sertifikatlaşdırılmış Mikromaliyyə Eksperti proqramına Azərbaycandan ilk yazılanlar biz olmuşuq və Sertifikatlaşmış Mikromaliyyə Mütəxəssisi dərəcəsini uğurla qazanmışıq. Frankfurt Maliyyə və Menecment məktəbi bütün dünya üzrə MM peşəkarları üçün eksklüziv olaraq e-öyrənmə proqramı hazırlamışdır. 6 aylıq bu beynəlxalq proqram sizin cədvəlinizə rahatlıqla uyğunlaşa bilən bir proqramdır. Proqramdan öyrəndiklərinizi dərhal işinizə tətbiq edə biləcəksiniz. Proqramın yeni raundu üçün Azərbaycandan daha 3 nəfər yazılmışdır. Yeni raund isə Sentyabr ayında başlayacaq! Təşkilatınızda Sertifikatlaşdırılmış Mikromaliyyə Ekspertinin olmasını istəyirsinizsə, məlumatı qalın və Sentyabr ayında yeni proqram üçün qeydiyyatdan keçin!

# Sosial Fəaliyyət üçün Universal Standartlar üzrə müzakirə

10 Aprel 2012-ci ildə MFC, Polşanın dəstəyi ilə Sosial Fəaliyyətin İdarə Olunması üzrə (USSPM) üzv təşkilatların rəyini öyrənmək üçün müzakirə aparmaq məqsədilə görüş təşkil etmişdir.
Sosial Fəaliyyət üzrə İşçi Qrupu (SPTF) USSPM üzrə müzakirələrin 2-ci fazasına başlamışdır. Bu standartlar bütün dünya MMİ-ləri üçün vahid olacağına görə, AMFA və MFC standartların etibarlı və tam uyğun şəkildə işlənməsi məqsədilə bu müzakirələrdə MMİ-lərin iştirakını çox vacib hesab etmişdir.
Bu Standartlar mikromaliyyə təşkilatlarının sosial məqsədlərinə nail olmaq üçün MMİ-nin icra etməli olduğu siyasətlər, prosedurlar və əməliyyatlarını aydın tələblərini təyin edir. Standards ona görə "universal" adlanır ki, onlar təkcə fundamental tələbləri özündə əks etdirmir, həm də, qabaqcıl təcrübələri də təyin edir.

## CFİ İcraçı Direktoru Elizabet Rayn ilə müsahibə

"Accion International's Center for Financial Inclusion" təşkilatının İcraçı Direktoru vəSMART Kampaniyasının həm-yaradıcısı "About Microfinance" dərcində sektorun üzləşdiyi dəyişikliklər və ən yeni cərəyanlar üzrə rəylərini və şəxsi təcrübələrini paylaşmışdır. O bildirmişdir ki, ümumilikdə sektor qlobal maliyyə böhranına qarşı davamlı olsa da, bəzi ölkələrdə sektorun surətli inkişafı nəticəsində bir müştəriyə bir neçə kredit təşkilatının kredit verməsi müştərilərin artıq-borclanmasına gətirib çıxarmışdır.
O həm də bildirmişdir ki, maliyyə böhranının faydası onda olmuşdur ki, bu böhran müştərilərin mühafizəsi məsələsini mikrokredit xidmət təminatçılarının gündəliyinə çıxarmışdır. ''Müştəri mühafizəsi üzrə işimiz SMART Kampaniyası ətrafında formalaşdı" - deyə o bildirmişdir. Rayn vurğulamışdır ki, SMART Kampaniyası hazırda sertifikasiya prosesi üzərində işləyir. Bu proses tezliklə MMİ-ləri və müştəriləri düşünən investorlar üçün Müştəri Mühafizəsi Prinsiplərini həqiqətən icra edən MMİ-ləri seçmək üçün yardımçı olacaq. Məqaləni tam oxumaq üçün bu səhifəyə baxın: http://centerforfinancialinclusionblog.wordpress.com/2012/04/02/about-microfinance-newsletter-features-cfis-managing-director/

## ÜZV XƏBƏRLƏRİ: TURANBANK

TuranBank

### KfW ilə yeni maliyyələşmə sazişi

TuranBank Alman İnkişaf Bankı, KfW ilə maliyyələşmə sazişi imzalamağa hazırdır. Azərbaycanda kiçik və orta sahibkarlığın maliyyə çıxışını dəstəkləmək üçün 1999-cu ildə KfW tərəfindən yaradılmış Alman—Azərbaycan Fondundan (GAF) 3-4 milyon avro kredit almaq imkanı var. Bundan əlavə, kreditə dəstək olaraq, KfW Turanbanka bank tərəfindən təyin edilmiş istiqamətlərdə texniki yardım da göstərəcək.

## ÜZV XƏBƏRLƏRİ: AQROİNVEST

Aqroinvest Kredit İttifaqı bu yaxınlarda ünvanını dəyişmişdir. Hazırda 31/41 Mətbuat prospekti, mən. 35B. Yeni telefon nömrəsini təqdim edirik: 012 434 64 05 / 11.

## Rotman İnsan Resursları Proqramı

Torontoda Rotman Menecment Məktəbi 30 Oktyabr—1 Noyabr, 2012-ci il.
Bu, direktorlar və insan resursları üzrə rəhbər işçilərər İnsan Resursları Komitəsinin rolu və vacibliyini daha yaxşı anlamağa kömək edən yüksək səviyyəli strateji proqramdır.
Mühüm öyrəniləcək məqamlar:

⇒ Rəhbərliyin əmək haqqıları üzrə cari cərəyanlar və təcrübələri anlamaq
⇒ Rəhbər namizədləri effektiv qiymətləndirmək
⇒ Direktorlar şurası və İnsan Resursları İcraçıları arasında əlaqələri daha yaxşı anlamaq
⇒ Həmfikir peşəkarlarla şəbəkələşmək və təcrübələri bölüşmək

Əlavə məlumat üçün bu səhifəyə baxın: **www.rotmanexecutive.com/hrboardeffectiveness**

## MFC Konfransı, Tbilisi, Gürcüstan, May 29-30, 2012-ci il.

**"Biznes və ya inkişaf? Seçmək vaxtıdır!" adlı 15-ci MFC illik konfransı Gürcüstan, Tbilisidə keçiriləcək.** Onlayn qeydiyyatdan keçmək üçün konfrans səhifəsindən istifadə edinwww.mfc2012.com. Hər hansı sualınız olarsa, əlaqə saxlamağa çəkinməyin mfc2012@guarant.cz, or: +420 284 001 444 (ask for Lucie Teglova or Natalya Goncharova).

## Davamlı müəssisə inkişafı üzrə 5-ci Akademiya: 18-29 İyun, Turin, Italiya

Bu il Akademiya aşağıdakı xüsusi məqamlar üzrə fokuslaşacaq:

- Davamlı inkişaf üçün faydalı mühit yaradılması üçün siyasət hazırlanması
- Müəssisə inkişafə üçün məhsullar və xidmətlər və daha yaxşı iş şəraitlərinin təşviqi
- İnkişaf zənciri və biznes xidmətləri bazarları vasitəsilə sektorial müəssisə inkişafına sistematik yanaşmalar

Əlavə məlumat üçün bu səhifəyə baxın: http://emld.itcilo.org/en

## Yeni baxışlar əldə edin: Frankfurt Məktəbinin Yay Akademiyaların qoşulun!

Bu il Frankfurt Məktəbi aşağıdakıları təklif edir: Mikro və SME Bankçılığı Yay Akademiyası 8 - 13 İyul, 2012-ci il (yeni brend formatında!). Davamlı Enerji Maliyyəsi Yay Akademiyası 15 - 20 İyul, 2012-ci il və Məişət Maliyyəsi Yay Akademiyası, 22-27 İyul, 2012-ci il.
Əlavə məlumat üçün bu səhifəyə keçin: www.frankfurt-school.de/content/en/intern_advisory/frankfurt_summer_academies.html

## Mikromaliyyə Təşkilatının maliyyə və institsional fəaliyyətinin qiymətləndirilməsi üzrə təlim PLANET RATING / GIRAF METODOLOGİYASI

### 24-25 May 2012-ci il – Bakı, Azərbaycan
### AMFA tərəfindən təşkil olunur

## Gənclər üçün iqtisadi inkişaf qlobal konfransı: Proqram təklifləri!

**"Making Cents International" 11-13 Sentyabr 2012-ci ildə Vaşinqtonda keçiriləcək Gənclər üçün İqtisadi İmkanlar Konfransı üçün sessiyalar təklif etməyə dəvət edir.** Tədbir haqqında əlavə məlumat almaq üçün bu səhifəyə keçin: http://www.youtheconomicopportunities.org/deafult.asp

## AMFA TƏLİMLƏRİNİ TƏQVİMİNİZDƏ QEYD EDİN!

**Biznesinizin İnkişafı üçün Kouçinq xidməti**. Camal Şahverdiyev. Azərbaycan/ İngilis/ Rus dillərində (sifarişlə)

**PLANET RATING GİRAFE Metodologiyası**. Emanuel Cavay. 24- 25 MAY, 2012. İngilis dili

Təlimlər haqqında daha ətraflı məlumat almaq və ya qeydiyyatdan keçmək istəyirsinizsə **member_services@amfa.**az elektron ünvanı vasitəsilə bizimlə əlaqə saxlamağınızı xahiş edirik.

Azərbaycan Mikromaliyyə Assosiasiyası

AMFA

Azerbaijan Micro-finance Association

### AZƏRBAYCAN MİKROMALİYYƏ ASSOSİASİYASI


C. Cabbarlı küç. 44
Kaspian Plaza 1, 5-ci mərtəbə
AZ 1065, Bakı, Azərbaycan


**AMA İnformasiya Bülletenınə yazılmaq istərdiniz? Bizimlə əlaqə saxlayın: program@amfa.az**


Telefon: 994 12 437 16 45
Faks: 994 12 437 23 39
E-mail: program@amfa.az


**Bizim internet səhifəmiz: www.amfa.az**
**Biz feysbukda: AMFA**